**Pantomima teatr-studiyasının Dövlət Pantomima Teatrı adlandırılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dünyəvi peşəkar teatrının 125 illik yubileyinin keçirilməsi haqqında" 1998-ci il 30 avqust tarixli, 891 nömrəli Sərəncamına əsasən yaradılan Təşkilat Komitəsinin Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının nəzdində fəaliyyət göstərən Pantomima teatr-studiyası Dövlət Pantomima Teatrı adlandırılsın.

2. Dövlət Pantomima Teatrının təşkili və saxlanılması üçün tələb olunan xərclər Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin vəsaiti hesabına ödənilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 6 mart 2000-ci il
№ 31

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S. 1162-1163.